MUSİQİ FOLKLORUMUZUN İZİ İLƏ

"Pəhləvani"



"Ceyranbala"

Azərbaycanın təbii şəraiti əlverişli olduğuna görə bu ərazilərdə qədim dövrlərdən xalq əkinçilik və maldarlıqla məşğul olmuş, musiqi folklorunun incilərindən sayılan holavarlar, əmək nəğmələri, sayaçı havaları bilavasitə təsərrüfatın bu sahələri ilə bağlı olub əmək prosesi nəticəsində yaranmışdır.

Holavarlar oxunan zaman heç bir musiqi alətindən istifadə olunmur. Ya cüt, ya da kotanla yer əkən zaman heyvanların hərəkətinə, alətlərin çıxardığı səslərə işin ahənginə uyğun olaraq oxunan holavarların forma və məzmunu bəsit olaraq mahnı yalnız "hoo... hoo"nun arası kəsilmədən təkrarından ibarətdir.

"Şum nəğməsi"



"Xırman mahnısı"

Azərbaycan musiqi folklorunda xüsusi yeri olan nəğmələrdən biri də laylalardır. Laylalar, ananın beşik başında müəyyən musiqi ahəngi ilə oxuduğu nəğmələrdir. Körpəsinin yuxuya getməsini istəyən ana bədahətən qoşduğu laylalarda övladını gülə, çiçəyə, parlaq günəşə, alınmaz qalaya bənzədir, onu özünün arxası, dayağı sanaraq gələcəkdə xoşbəxt olmasını arzulayır.

"Lay-lay"



Xalq yaradıcılığı-folklorun toplanılması, nəşri və elmi-nəzəri təhlili həmişə olduğu kimi müasir dövrümüzdə də aktualdır. Respublikamızda bu işlə əsasən AMEA-nın Nizami adına ədəbiyyat institutu, Respublika xalq yaradıcılıq evi, BMA-nın xalq musiqi kafedrası, pedaqoji institutlar, BDU-nun filologiya fakültəsi və həmçinin bir sıra ziyalılar məşğul olurlar.

Tükənməz xəzinə – folklorun xalqın sinəsində yatan bir çox nümunələri hələ də öz tədqiqatçısının yolunu gözləməkdədir. Gənc tədqiqatçılarımıza bu nəcib işdə uğurlar arzulayırıq.

Ağahüseyn Anatollu oğlu